# Azad Qarabağda Novruz:

## Xalqımızın doğma torpaqlara yenidən qayıdışı




Bəşəriyyətin yaranışından bəri xalqlar özünəməxsus adət-ənənələr formalaşdırmış, onları nəsildən-nəslə ötürərək yaşatmışlar. Azərbaycan xalqı isə bu baxımdan ən xoşbəxt xalqlardan biridir. O, əsrlərin sınağından çıxan dəyərlərini unutmamış, zamanın çətinliklərinə rəğmən, onları qoruyub saxlamışdır. Xalqın sevincindən doğan, ümidlə yoğrulan adət-ənənələr zaman keçdikcə təkcə yaşam tərzinin bir hissəsi olmaqla, həm də milli bayram səviyyəsinə yüksəlmişdir. Bu bayramlar xalqın tarixi yaddaşının parlaq səhifəsinə çevrilərək bu gün də onun mənəvi dünyasının ayrılmaz hissəsi kimi yaşayır.

(davamı 7-ci səhifədə)

# Azad Qarabağda Novruz:







## Xalqımızın doğma torpaqlara yenidən qayıdışı

(əvvəli 1-ci səhifədə)

Bu milli bayramlardan biri də Novruz bayramıdır. Azərbaycan xalqı əsrlər boyu Novruzu təbiətin oyanışı, bolluq və bərəkət rəmzi kimi qeyd etmişdir. Bayramın kökləri çox qədimlərə gedib çıxır və onun əsasını Günəşin və təbiətin yenilənməsi ilə bağlı inanclar təşkil edir. Alimlərə görə, bu bayramın tarixi çox qədimdir. Elmi araşdırmalar Novruz bayramını Zərdüşt peyğəmbərin yaşadığı dövrlə bağlayır, onun yaşının ən azı 3700, ən çoxu 5000 il olduğunu qeyd edirlər. Qədim Vavilonada bu bayram Nisanın (mart, aprel) 21 günü qeyd olunurdu və 12 gün davam edirdi. Bununla belə bu 12 günün hər birisinin öz ritualları, ənənələri, öz əyləncələri mövcud idi. İlk yazılı mənbədə qeyd olunur ki, Novruz bayramı bizim eradan əvvəl 505-ci ildə yaranmışdır.

İslam alimləri Novruza dini çalar verməyə çalışsalar da bu bayramın İslamdan çox əvvəl yarandığını tanınmış maarifçilər - Firdovsi, Rudaki, Avisenna, Nizami, Sədi, Hafiz və başqaları da təsdiq ediblər. Novruzun tarixi kökləri barədə yazılmış əsərlər arasında Nizaminin "Siyasətnamə"si, Ömər Xəyyamın "Novruznamə"si və bir çox digər mənbələr xüsusi əhəmiyyət daşıyır. Sovet hakimiyyəti illərində Novruz rəsmi bayram kimi tanınmırdı, hökumət onun qeyd olunmasını yasaqlayır, insanları bu ənənədən uzaqlaşdırmağa çalışırdı. Lakin xalqın yaddaşına, ruhuna hopmuş bayramı unutdurmaq mümkün deyildi. Azərbaycanlı ailələr bütün məhdudiyyətlərə baxmayaraq, Novruzu evlərində qeyd edir, nəsildən-nəslə ötürərək yaşatdılar. Bu bayramda süfrəyə əsasən səməni, şirniyyatlar - şəkərbura, paxlava, qoğal, eləcə də müxtəlif nemətlər düzülür. Bayram ərəfəsində keçirilən dörd çərşənbə - Su, Od, Yel və Torpaq çərşənbələri qədim inanclarla bağlı olub, təbiətin oyanışını simvolizə edir. Hər çərşənbənin özünəməxsus ayinləri var və xalq arasında geniş şəkildə qeyd edilir.

Novruz bayramı təkcə Azərbaycanda deyil, geniş bir coğrafiyada - Orta Asiya, İran, Türkiyə və digər Şərq xalqları arasında da qeyd olunur. Lakin ölkəmizdə Novruz özünəməxsusluğu və zəngin adət-ənənələri ilə seçilir. Novruza qədər insanlar dörd çərşənbəni qeyd edirlər. Bu çərşənbələrin daxil olduğu dövr "boz ay" adlanır. Qədim köklərə malik olan bu bayram bir çox adət və ənənələrə malikdir. Xalq arasında yayılan maraqlı adətlərdən biri də qulaq falına çıxmaqdır. Axşam qaranlıq çökəndə adamlar niyyət tutub qonşuların danışıqlarına qulaq asarlar. İlk eşidilən söz tutulan niyyətə uyğun şəkildə yozulur. Buna görə də Novruz axşamı evlərdə könül açan, ümid verən sözlər danışmaq vacib hesab olunur. Bayram günü isə süfrənin bol nemətlərlə bəzədilməsi, qızgəlinin təzə yaylıq və çəkmə geyinməsi adət-ənənələrin ayrılmaz hissəsidir. Keçmişdə evlərdə hanalar qurular, bayram xalçaları toxunardı. Bütün bu adətlər Novruzun təkcə baharın gəlişi deyil, həm də yeni ümidlərin, həyat eşqinin rəmzi olduğunu göstərir.

UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 2009-cu il 28 sentyabr - 2 oktyabr tarixlərində keçirilən dördüncü sessiyası zamanı "Novruz" çoxmillətli nominasiya kimi, (Azərbaycan, Hindistan, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan) UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irsi üzrə Reprezentativ siyahısına daxil edilmişdir. Bu gün Novruz bayramı təkcə təbiətin oyanışının deyil, eyni zamanda Azərbaycan xalqının qələbəsinin, birliyinin və yenidən doğuluşunun simvoluna çevrilib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu bayram daha böyük coşqu və təntənə ilə qeyd olunmağa başladı. Lakin xalqımızın 30 ilə yaxın bir arzusu var idi - işğal altında qalan doğma torpaqlarda, Qarabağ və Şərqi Zəngəzurda da Novruz tonqallarının alovlanması. Bu arzunun gerçəyə çevrilməsi 2020-ci ildə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətli siyasəti və şanlı Ordumuzun qəhrəmanlığı sayəsində mümkün oldu. İşğaldan azad edilən torpaqlarımızda illər sonra yenidən Novruz bayramı qeyd olunmağa başladı. Ölkə başçımız bu qələbəni xalqımızın iradəsinin, əzminin və müdrikliyinin təntənəsi kimi dəyərləndirdi. Bu gün Qarabağımızın bütün bölgələrində, Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda Novruz tonqalları qalanır, bayram sevinci yaşanır.

Son dörd il ərzində Prezident İlham Əliyev Novruz bayramını işğaldan azad edilmiş ərazilərdə qeyd etməklə bu torpaqların azadlığını, xalqımızın iradəsini və birlik ruhunu bir daha dünyaya nümayiş etdirib. 2021-ci ildə Şuşada, Cıdır düzündə yandırılan Novruz tonqalı Azərbaycanın parlaq qələbəsinin simvolu oldu. Həmin gün Prezident xalqa müraciətində Şuşanın azad olunmasını tarixi hadisə kimi qiymətləndirdi. Daha sonra 2022-ci ildə Suqovuşanda, 2023-cü ildə Talış kəndində, 2024-cü ildə Xankəndidə Novruz bayramı təntənə ilə qeyd olundu. Bu il isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərənin Həsənriz kəndində sakinlərlə birlikdə Novruz tonqalını alovlandıraraq xalqımıza zəfər sevincini bir daha yaşatdılar. Hər yandırılan tonqal xalqımızın yenilməz ruhunun, torpağına, vətəninə olan sevgisinin, müstəqilliyimizin və əbədi qələbəmizin rəmzidir.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

Respublika .- 2025.- 20 mart (№ 61).- S.1;7.